MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib

Aprelin 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibdə ilk iclası keçirilib.

İclasda qurumun sədri, müavini və iki katibi seçilib.

İclasda Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov və parlament Aparatının rəhbəri Səfa Mirzəyev iştirak ediblər.

Əvvəlcə aprelin əvvəllərində erməni silahlı qüvvələrinin təxribatının qarşısını alarkən şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Aprelin 15-də Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin Milli Məclis tərəfindən təsdiq edildiyini xatırladan Ziyafət Əsgərov deyib: "Seçki Məcəlləsinin tələblərinə görə, bu gün Mərkəzi Seçki Komissiyasının sədri, müavini və katibləri seçilməlidir. Seçki Məcəlləsinin 19-cu maddəsinə əsasən, iclası aparacaq şəxs müəyyən olunmalıdır. Həmin maddənin tələbinə görə, iclası MSK-nın ən yaşlı üzvü aparmalıdır".

Sonra MSK-nın ən yaşlı üzvü Şaitdin Əliyev komissiyanın yeni tərkibdə ilk iclasını açıq elan edib.

Daha sonra açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyası sədrinin, sədr müavininin və katiblərinin seçkisi keçirilib.



Məzahir Pənahov yekdilliklə Mərkəzi Seçki Komissiyasının sədri seçilib.

Natiq Məmmədov MSK sədrinin müavini, Arifə Muxtarova Milli Məclisdə heç bir partiya mənsubiyyəti olmayan müstəqil deputatları, Mikayıl Rəhimov isə parlamentdə deputatları azlıq təşkil edən siyasi partiyaları təmsil edən MSK katibləri seçiliblər.

MSK-nın yeni tərkibinə etimad göstərdiklərinə görə Milli Məclisin bütün üzvlərinə minnətdarlığını bildirən Məzahir Pənahov qeyd edib ki, komissiya bundan sonrakı fəaliyyətində də ölkəmizdəki seçkilərin şəffaf və demokratik keçirilməsi üçün bütün lazımi işləri görəcək. Azərbaycan Prezidenti İlham Əliyevin seçki komissiyalarına göstərdiyi diqqətdən söhbət açan Məzahir Pənahov deyib ki, məhz dövlət başçısının daimi qayğısı sayəsində mərkəzi və aşağı seçki komissiyalarına seçki qanunvericiliyinin tələblərinə uyğun fəaliyyət göstərmələri üçün hərtərəfli şərait yaradılıb. MSK sədri deyib: "Biz bundan sonrakı fəaliyyətimizdə də çalışmalıyıq ki, dövlət başçısının bizə göstərdiyi bu etimadı fəaliyyətimizlə doğruldaq. Buna görə də bizim üzərimizə böyük məsuliyyət düşür".

Sonra çıxış edən Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov bildirib ki, istənilən ölkədə seçkilər məsuliyyətli siyasi və hüquqi fenomendir. Ölkədə keçirilən seçkilərdə ən çox məsuliyyət də məhz Mərkəzi Seçki Komissiyasının üzərinə düşür. Ötən illər göstərdi ki, Mərkəzi Seçki Komissiyası üzərinə düşən işin öhdəsindən çox uğurla gəlib və bu sahədə kifayət qədər təcrübəyə malikdir. Ölkəmizdə keçirilən seçkilərin beynəlxalq standartlara uyğun, şəffaf və demokratik keçirilməsində MSK-nın rolu böyükdür. Ziyafət Əsgərov əminliklə bildirib ki, bu tərkib gələcəkdə də ölkəmizdə seçkilərin uğurla keçirilməsini təmin edəcək.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev MSK sədrini, müavin və katiblərini yenidən seçilmələri münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. "Mərkəzi Seçki Komissiyasının 20 ildən çox müddətdə qazandığı təcrübə, onun tərəqqisi hər birimizin gözləri qarşısında baş verib. Son parlament seçkiləri bir daha göstərdi ki, Azərbaycanda seçkilər beynəlxalq standartlara uyğun, şəffaf və demokratik keçirilir. Həm yerli, həm də beynəlxalq müşahidəçilər komissiya üzvlərinin işini, onun keyfiyyətini xüsusi qeyd etdilər", - deyə Səfa Mirzəyev vurğulayıb.

**AZƏRTAC**